Ədalət

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 27 (2061) 5 mart 2020-ci il

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

(əvvəli ötən saylarımızda)

**Və dahi Aristotel səadətin üç şərtini qeyd edir: 1) insan tam inkişaf etməli və kamilləşməlidir, 2) insan sağlamlığa, firavanlığa, başqa nemətlər bolluğuna malik olmalıdır, 3) insan dövlət işlərində iştirak etməlidir.**

Maraqlıdır və təsadüflərə bağlanmamalıdır ki, böyük şair, ictimai xadim M.P.Vaqifdə bu üç atribut vardır. Lakin sonuncusu (3) onun həyatının sona çatmasına səbəb yaratdı.

Molla Pənah Vaqif dövrünün nəbzini tuta bilmiş, nikbin, həyata çağırış, dünyəvi poeziyası ilə xalqı "axirət aləmi" ümidilə yaşamağa, mənəvi əzablara boyun əyməməyə səsləmişdi. gözəlliyin estetik dəyərinin təsviri, işıqlı insan ömrünün tərənnümü fikrimizi sübut edir.

Molla Pənah Vaqifin poeziyası haqqında xeyli sayda əsərlər yazılmış və təqdir olunmuşdur. Şair bu təqdirə tamamilə layiqdir. Saf, ləkəsiz, lakonik intonasiya üslubuna malik bu şeiriyyət aləminin doğuluşuna səbəb nəydi: istedadmı, müşahidəmi, vətənpərvərlikmi? Hər üç faktor və qeyri əlavələrdə İlhamsız "şeir xarabazardır", söz yığımıdır, müşahidəsiz şair yaşantısı yoxdur, mövzu da həmçinin: vətənpərvər olmasa ərəb və fars dilinin ən dahi şairləri sarsıtdığı hegemonluğun əksinə Vaqif varlığımıza əbədi heykəl ucaltdı, necə ki bu işi Puşkin öz millətı qar-şısında görmüşdü Vaqifdən sonra. Bunlar anlaşılan və duyulan nəsnələrdir. Vaqifdən yazanlar bu halı gözləmişlər. Lakin bir suala mənim yozumumda cavab tapmaq niyyətinə nədənsə düşməmişlər: Şairi hansı tələb gözəlliyi duymağa, dərk etməyə və fəlsəfəsini poetikləşdirməyə motivləşdirmişdir? Suala cavab axtarmaq fikrinə düşməməkdə subyektiv amillər yox deyildi, xüsusilə, ideoloji qadağalar məhdud çərçivədən çıxmamaq mənti-qi. Bu "üçlük" daima milli poeziyamızın şərhində böyük əngəl olmuşdur, əvəzində klassiklərdə ateizm, feodal psixologiyası, ağır yaşamaq qisməti, savadsızlığın mövcudluğu və sair tədqiqat obyektinə yön verilmişdir. Nizami, Nəsimi, Füzuli, Seyid Əzim, Sabir simasında xüsusilə, gənc nəslə bu süni yarlıqlar yapışdırılmış nəzərində təqdim edilmişdir - "Baltası özümüzdən olan" filoloq alimlər tərəfindən. Amma rus mütəxəssisləri nə Puşkinə, nə Lermontova, nə də Yeseninə belə "böhtanlar" atmamışlar! Hətta öz milli şairlərinin ilham mənbələri olan sevdikləri qadınlarını məktublarının subyektlərini yazmışlar, yazışmalarını nəşr etmişlər, bu gün də axtarışları səngiməmişdir.

Şairlərin təbiəti oxucuları üçün bəlli həqiqətdir, çox təbii qarşılanır: şair də insandır, kişidir, qadın gözəlliyinə pərəstiş edəndir, bu incə məxluqun önündə varlığından, hisslərindən xəbərdar edəndir. Hətta ailəli olsalar da digərini sevirlər, bir-birinin həsrətində yaşayırlar, yenidən ailə qururlar. Bu adət qeyri-müsəlman kişiləri üçün elə də təqdir olunmur, şairlər, yazıçılar nüfuzlarına xələl gətirmək istəmirlər: ailə möhkəmliyini qoruyurlar. Lakin tarixi faktlar göstərir ki, heç də düşündüyümüz kimi deyil: seviblər, məktublaşıblar, evləniblər. Hamısı da pərdə arxasında və qə-ribədir bir iz belə qoymamışlar. Tək-tük şairlər olub ki, şeirlərində pərəstiş etdiyi qadınların adlarını çəkmişlər. Yeganə şair Molla Pənah Vaqifdir ki, emosiyalarından qaçmamışdır, cəsarət göstərib şeirində əbədiləşdirmişdir.



Bu gün XXI əsrdə belə həyati, zəruri məsələyə nəzər yetirəndə o baxımdan, təəc-cüblənirsən ki, şair əgər ilhamını xoşladığı, məhəbbət bəslədiyi və sevgisini tapdığı qadına olan zərif hisslərini nə üçün gizlətməlidir? Buna hacət varmı? Qadın gözəlliyi, davranışı, ədası, səsi, geyimi, baxışları konkret desək, şairin diqqətini çəkmişsə, bu hiss ötəri olmamışsa və uzaqdan-uzağa pərəstişkarına həsrət bağışlamışsa qəbahəti nədir şairin?

**O şux qəmzələrin, xəncər kirpiyin,**
**Gündə olur yüz min qan qabağında.**
**Xumar-xumar baxan ala gözlərin,**
**Gərəkdir verəsən can qabağında.**

**Qaşın qabağında sığallı birçək,**
**Sayə salmış üzə şölə mübarək.**
**Amma iki dəstə tər bənövşə tək,**
**Qoymuş alyanağın yan qabağında.**

**Zülfündən qoxular gülü reyhanlar,**
**Qurban hər muyinə yüz min cavanlar.**
**Pişvazına gəlir hurü qılmanlar,**
**Mələyik durmuşlar san qabağında...**

Diqqət yetirək şairin tərənnüm etdiyi gözələ, qadının hansı xüsusiyyətləri şairi ilhama gətirmişdir: şux ədaları, xumar baxışları, ala gözləri, sinəsindəki iki tər bənövşə (şairin etikasına bax), al yanağın saçdığı şölə, saçlarından səpələnən gül qoxusu, hansı ki cavanları heyran edir. Yaxşı, şairin ilham pərisini "yuvasından" səksəkəli qaldıran gözəlin gözəlliyi olmazsa? Yaradıcılıq - söhbət poetik yaradıcılıqdan gedir - belə məqamlarda baş tutur; bu halı yalnız şairlər yaşayır, bir də musiqiçilər və rəssamlar. Digər sənət sahibləri mənə irad tutmazlar, çün misralar gözəlin hər bir telindən, həzin baxışlarından, xoş ədasından qidalanıb doğulur, bunlar yoxsa şeir ağır yük daşıyan atların ayaq tappıltısının səsini verəcəkdir!

Qadına olan məhəbbət və sevgi iləğımını o şair idrak edər - qadın onun üçün eşq mücəssəməsidir, öz daxili aləmində bişirmişdir. Bu məxluq şairin vurğunluğunun ülvi zirvəsini - eşqini dilə - şeirinə gətirmişdir.

**Eşqin atəşidir məni əridən,**
**Can üzüldü baxa-baxa geridən.**
**Dönmüşəm mələkdən, tamam pəridən,**
**Vaqifəm, sevmişəm təzə Fatimə?**

**Saçın zəncirinə könül bağladım,**
**Məcnun kimi düşdüm dağa, Fatimə!**
**Neçün məni görcək sərxoş ötürsən,**
**Bir baxmazsan sağa-sola, Fatimə!**

**Haçanacan canımı odlara yaxım,**
**Hər tərəfə daşqın sellərtək axım,**
**Çox muştağam, aç üzünü qoy baxım,**
**Ənbər zülfə, gülyanağa, Fatimə!**

Misralarda poetik yaradıcılığa impuls verən bəzi nüanslar var, şairin və şeirin də özəlliyini bunda axtarmalıyıq. Sevgi - eşq alovu - atəşi, ümumiyyətlə insan üçün çox sadə, stixi, tələsən əda ilə gəlirsə heç bir iz buraxmaz, tez də sönüb gedər. Eşqin varlığında bir atəş yanmalı ki, şairin canını üzməlidir.

Leyli ilk tanışlığından Məcnuna yaxınlaşsaydı, oturub-dursaydı, əl-ələ verib bağçada gəzsəydilər bu ünsiyyət eşqə çevrilməzdi. Şairin Fatiməsi sadəlövh görüş üçün sino gedən deyil. Hərçənd, onu görəndə yerişini itirir, sağa-sola belə nəzər yetirmir ki, Vaqif özünü Məcnunla müqayisə edir.

Qadından, onun gözəlliyindən aldığı (bu, azdır, bütün vücudunda özünə yer tapmalıdır) şəhvət hisinin oyatdığı təsir şairi həyəcanlandırmaya bilməz, ona şeiri pıçıldamaya bilməz. Burada gizlin nə ola bilər ki! Qadına (subyektə) münasibət necədirsə, şairə öz ecazkarlığını təlqin etmişsə də, hər iki tərəf bu ilğım aura "həddini" aşmır, baxmayaraq başdan - binadan ona min bir əzab verməkdədir, şair üçün müsibət deyilmi?!

**Bu necə zülmdür mənə eylərsən,**
**Adam məgər bir insafa gəlməzmi?**
**Bir gün görərsən ki, vallah ölmüşəm,**
**Bu qədər dərd çəkən axır ölməzmi?**

**Xublarda adətdir, nəzakət satar,**
**Genə xəyalını xəyala çatar,**
**Gözəl olan məgər başın dik tutar?**
**Aşiqinə doğru heç əyilməzmi?**

**Eşq oduna yandı canım sərbəsər,**
**Allaha bax, ey zalimü sitəmkar,**
**Aşiqinə canlar ağladan dilbər,**
**Rəhmə gəlib göz yaşın sönməzmi?**

Qadın sevən kişinin yaddaşında daima yamyaşıl yarpaq görümündə cilvələnir, ona xəzan yeli toxunmağa cəsarət göstərmir, çün onda şair gözü var, şeirinin obrazıdır. Şair o hallarda təsvir obyektindən "qidalanır", gözəli ondan gizlənir, əl vermir, barı "ağappaq barmaqlarını" qüvvətli və isti ovcunda sıxsın, təsəlli tapsın. Vaqif şeirlərinə diqqət yetirsək: o, hey çalışır gözəlinə yaxınlaşsın, saçlarını qoxulasın, qoşa bənövşənin ömrünü uzatsın, "ölməyə" qoymasın.

**Və bu vəziyyətlər yaddaşa hopur, beynin sürətlə işləməsinə təkan verir. Bu hiss həqiqi sevgimidir? Suala müsbət cavab verməmək istəməzdim, lap elə müasir şairlərimizin onlarla məhəbbət şeirləri yazılıbdır, lakin digər sənət - peşə sahiblərindən fərqli olaraq öz zövqü biçimində xəyalında bir qadını canlandırır və bütün yeni doğulan təzə hisslərini həmin subyektə yönəldir. Bir baxış, bir toxunuş, bir kəlmə söz belə şairdə oyanışı canlandırır, bədənində enerji yaradır, ürəyisə hey çırpınır, vurnuxur ki, gözəlinə hisslərini çatdırsın və müsbət cavab alsın.**

**(ardı növbəti sayımızda)**



**Allahverdi Eminov**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR